*Səmədova Nailə.Nəriman Nərimanov Məmməd Səid Ordubadinin xatirələrində // Elmi əsərlər,2020,2(11),iyul-dekabr, s.13-17.*

**Səmədova Nailə,**
*filologiya üzrə elmlər doktoru*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
*e-mail: nailesamadova@yahoo.com*

UOT 821.512.162 : 94(479.24)

# NƏRİMAN NƏRİMANOV MƏMMƏD SƏİD ORDUBADİNİN XATİRƏLƏRİNDƏ

*(Nəriman Nərimanov – 150)*

**Açar sözlər:** *Nərimanov, arxiv, Ordubadi, xatirə, məqalə*

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadinin zəngin şəxsi arxivi mühafizə edilir. Burada ədibin əsərlərinin əlyazmaları, tərcümeyi-hal və xatirələri, roman və povestləri, pyesləri, poema və şeirləri, məqalə və felyetonları, özünün yazdığı və ona ünvanlanan məktublar, ədəbi və ictimai fəaliyyəti ilə bağlı materiallar saxlanılır.

Arxivin müəyyən hissəsini tərcümeyi-hal və xatirələr təşkil edir. "Həyatım və mühitim" memuarı, "Bakıda ikinci kərə" və "Nərimançılıq" adlı əsərlərinin əlyazma nüsxələri Məmməd Səid Ordubadinin şəxsi arxivində qorunub saxlanılır. Bu nümunələrdə Ordubadinin böyük yazıçı, görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov haqqında xatirələri təsvir edilmişdir. "Nərimançılıq" əsərində əvvəlkilərlə müqayisədə Nəriman Nərimanov haqqında daha geniş və zəngin məlumat vardır. Əsər səkkiz vərəq həcmində ərəb əlifbası ilə yazılmış avtoqraf nümunədir. Onu da qeyd edək ki, istər Məmməd Səid Ordubadinin, istərsə də Nəriman Nərimanovun irsini tədqiq edən müəlliflər bu əsərə toxunmamışlar və təbii ki, burada təsvir edilən hadisələri də işıqlandırmamışlar. Halbuki, bu xatirədə yazıya alınan olaylar tariximizi maraqlı materiallarla zənginləşdirir. Müəllif yazır ki, "... mənim nərimançılıqdakı xatirələrim nərimançılığın olduğu barəsində zəngin materialdır ki, bu material Azərbaycan tarixi yazanlar üçün də qiymətlidir" [1, s.1].

Məmməd Səid Ordubadi 1918-ci ilə qədər Nəriman Nərimanovla onun əsərləri vasitəsi ilə tanış idi. Saritsində sürgündə olan yazıçı 1919-cu ilin baharında Həştərxana gəlir və "Hümmət" qəzetində işə başlayır. Bu dövrdə Məmməd Səid və həyat yoldaşı ağır xəstələnir. Onları Nəriman Nərimanov müalicə edirdi. Elə bu vaxtdan Ordubadi Nəriman Nərimanovla yaxından tanış olur. Məlumdur ki, Nərimanov 1918-ci ilin iyun ayında xəstəliyi ilə əlaqədar müalicə məqsədi ilə Həştərxana getmişdi. O, burada Həştərxan quberniya icraiyyə komitəsində rəhbər vəzifədə çalışırdı. Çox keçmir ki, Ordubadi də Həştərxanda "Hümmət" qəzetinin məsul müdiri təyin edilir. Ordubadi yazır ki, "mən hələ Astaraxanda (Həştərxanda – N.S.) olduğum zamanlar onunla, Nərimanla etdiyim söhbətlər nəticəsində onun əqidə və düşüncəsində mürəkkəb bir fikirlərin böyüdüyünü və onu rahətsiz etdiyini hiss edirdim. Buna görə də mən doktor Nərimanovu millətçi liberal burjuaziya ziyalısı ... kimi göstərənlərin heç birisi ilə razılaşmırdım" [1, s.1].

1918-ci il oktyabr ayının 1-dən Nəriman Nərimanov xalq komissarı kimi Həştərxan quberniya maarif şöbəsinin müdiri kimi fəaliyyət göstərirdi. O, "zəhmətkeş kütlələrin maariflənməsinə və mədəni inkişafına xüsusi qayğı ilə yanaşır, mədəniyyət ocaqları və yeni tipli məktəblər açdırırdı. Yerli əhali arasında müəllim kadrları hazırlamaq üçün qısa müddətli pedaqoji kursların təşkilinə rəhbərlik edir, yeni tipli məktəbə olan köhnə münasibəti aradan qaldırmaq üçün geniş kütləvi-izahat işi aparmalı olurdu" [2, s.286].

Nəriman Nərimanov Həştərxanda olarkən mollaları məscidə dəvət edir və bildirir ki, onların tələblərini hökumət orqanlarına sərbəst surətdə bildirmələrinə imkan veriləcək. Nərimanov məsciddə çıxış edərək deyir: "... dini dövlətin təsirindən azad etmək lazımdır. Bu o deməkdir ki, ruhanilər, mollalar, keşişlər kənardan heç bir təsir olmadan istədikləri məzhəbi təbliğ etsinlər. Kilsəni dövlətə tabe etmək mollalara, keşişlərə pul, qızıl, vəzifə, rütbə verib satılmaz və alınmaz, əsl dinin tələblərini deyil, dövlət istəyən fikirləri yaymağa məcbur etmək deməkdir. Din, iman azad olmalıdır, iman gətirmək adamların öz işidir. Bu, hər bir şəxs üçün müqəddəs olan hissdir" [3, s.177]. Elə bu fikirlər də nərimançılığın əsasını təşkil edirdi.

1920-ci ilin may ayında Nəriman Nərimanov Bakıda idi. Elə bu dövrdə Bakıya gələn Məmməd Səid Ordubadi məktəb yoldaşı İbrahim Əbilov ilə danışıb Nəriman Nərimanovun görüşünə getmək istədiyini xəbər verir. Ordubadi yazır ki, Nərimanov "bizi olduqca gülər bir üzlə qəbul etdi. Rəsmi təarüfdən sonra doktorun əmri olmadan bizə çay gətirdilər. Bu əsnada buzovnalı molla Mirzə Əlinin görüşə gəldiyini xəbər verdilər. Doktor gəlməsinə icazə verdi. O, içəri girən kimi doktoru qucaqlayıb öpdü, doktor da onu çox məhəbbətlə öpdü. Mən inqilab rəhbəri ilə bir nəfər mollanın əlaqəsindən olan bu qədər səmimiyyətə təəccüb etdim" [1, s.2].

Sonralar Məmməd Səid Ordubadi "Bakıda ikinci kərə" adlı xatirəsində Nəriman Nərimanov haqqında yaddaşında olanları qələmə almışdı. Əsərdə Ordubadinin ünsiyyətdə olduğu insanlarla münasibəti, dövrün olayları canlandırılmışdır. Müəllif Həbib Cəbiyev və Ruhulla Axundovun Nəriman Nərimanovla apardıqları mübarizəni xatırlayaraq yazırdı: "Həbib Cəbiyev və Ruhulla Axundov Nərimanla apardıqları mübarizədə məğlub edilmişdilər. Buna görə də Nəriman Nərimanov öz dostu Ağababa Yusifzadəni "Kommunist" qəzetəsinə müdir təyin etdirmişdi" [4, s.26].

Ağababa Yusifzadə "Füqəra füyuzatı" məcmuəsinin redaktoru idi. Məcmuədə bayram nömrəsi çıxarılırdı, orada rəhbər işçilərin şəkilləri veriləcəkdi. Ordubadi "Bakıda ikinci kərə" xatirəsində yazır: "Yusifzadə Mirzə Əlisgəndər ilə müqavilə bağlayıb şəkillərin altına şeirlər sifariş vermişdi. Məqalə üzrə şeirin hər misrasına bir manat qızıl verilmişdi. Şeirlər yazılandan sonra düzəldilmək üçün mənim stoluma verilmişdi. Şeirlər ədəbi bir məcmuədə çap edilə bilməzdi. ... Mən şeirləri götürüb şəxsən doktor Nərimanın yanına apardım və bunların çap edilməsinə qarşı etiraz etdim. Doktor bir qədər fikirləşdi və sonra da gülərək:

-Bir neçəsini oxu görüm – dedikdə mən oxudum:

-Bax bu Qarazadə Əliheydərə

Zadeyi-Şirvan o mələk mənzərə.

Doktor çox güldü və dedi:

-Çox yaxşı yazıb, məcmuədə getməlidir.

Mən çıxılmaz bir vəziyyətdə qaldım, nəhayət:

-Sizin üçün də bir belə şeir yazılıbdır – dedikdə oxumağıma əmr etdi.

-Nərimansan, Nərimani-zamansan, Şərqə dahisən.

Doktor bundan sonra:

-Dur get işinə, qoy xalq işini görsün – dedi" [4, s.27].

"Nərimançılıq" əsərində də M.S.Ordubadi N.Nərimanovla olan görüşünü, eyni zamanda, nərimançılığın mahiyyətini şərh edərək yazırdı: "Nərimançılıq deyirdi ki, xalqların irq və adətləri müxtəlif olduğu kimi düşüncə və zehniyyətləri də bir-birindən ayrıdır. O, isbat etmək istəyirdi ki, hər mədə hər bir qidanı həzm edə bilməz. Buna görə də Nəriman öz nəzəriyyəsində kommunizmi şərqiləşdirməyi təklif edirdi, yaxud da o, Şərqə məxsus bir

kommunizm tərtib etməyi düşünürdü. Onun nəzəriyyəsində kommunizm ilə islamiyyəti barışdırmaq fikri bir yer tuturdu. Nərimançılıq, eyni zamanda, təbəqi sinifləri, təsviyəlik məsələsini kommunizm ilə burjuaziyanı barışdırmaqla həll etmək istəyirdi. Lakin nərimançılıq bu fikirlə bərabər başqa bir fikri də meydana atmışdı. Odur ki, "dünyada bir əqidənin hakim olması millətin orijinallığını itirmək deməkdir. Çünki əqidənin milli adət və milli mədəniyyət üzərində böyük bir təsiri ola bilər" [1, s.4].

Nəriman Nərimanov öz nəzəriyyəsi ilə sovet üsul-idarəsindən narazı olanları öz tərəfinə çəkmişdi. Bununla belə, bu nəzəriyyə nərimançılar tərəfindən müxtəlif məzmunlarda işlədilirdi. Dadaş Bünyadzadə, İsrafilbəyov, Qədirli, Həmid Sultanov nərimançı olsalar da, bu nəzəriyyənin nədən ibarət olduğunu anlamırdılar. Ordubadi məqaləsində yazır: "Nəriman qrupuna qarşı mübarizə aparan Ruhulla Axundov, Əliheydər Qarayev, Həbib Cəbiyev, Mirzə Davud Hüseynov, Qəzənfər Musabəyov və sairləri də Mərkəzi Komitənin interesini müdafiə üçün mübarizə aparırdılar. Onların mübarizələrinin əsas mündəricəsi Nəriman Nərimanovu Komissarlar Şürası sədrliyindən atmaq, onun yerinə Mirzə Davud Hüseynov və Musabəyovlardan birisini təyin etdirməkdən ibarət idi" [1, s.5].

Düşmənlərinə qarşı mübarizədə Nəriman Nərimanov bütün vasitələrdən istifadə edirdi. O bilirdi ki, düşmənləri Levon Mirzoyan tərəfindən müdafiə olunur. Buna görə də ilk növbədə Mirzoyanı həcv etdirirdi. Bu həcvlər Səməd Mənsur və Hacı İbrahim Qasımov tərəfindən yazılır və Nərimanov tərəfdarları tərəfindən təşkil edilən ziyafətlərdə oxunurdu. Bununla belə, nərimançıların da mövqeyi bir o qədər möhkəm deyildi. Çünki M.S.Ordubadinin fikrincə, "bu qrupun görkəmli üzvlərindən Dadaş Bünyadzadənin Nərimanla axıra qədər həmfikir olacağına etibar yox idi. O, lazım gəldiyi zaman Nərimanı çox ucuz sata bilərdi" [1,s.6]. Hadisələrin cərəyanı Ordubadinin öz fikirlərində yanılmadığını təsdiq etdi. Dadaş Bünyadzadə Nəriman Nərimanovu aralıqda tək buraxıb Levon Mirzoyan tərəfə keçır. Həmid Sultanov isə öz müavini Seviridovla apardığı mübarizə nəticəsində Daxiliyyə Komissarlığından azad edilib İran Ədalət partiyasının katibi təyin edilir. Nərimanov tərksilah edilir. Bununla əlaqədar o, Moskvaya uzun bir məruzə məktubu göndərməyi qərara alır. Məruzə məktubunda göstərilən məsələləri yoxlamaq üçün məktub Azərbaycan Mərkəzi Komitəsinə göndərilmişdi. Levon Mirzoyan Mərkəzi Komitədə işləyirdi. Məktubda yazılan narazılıqlar da Mirzoyanın əleyhinə idi. Buna görə də məruzə məktubunu müzakirə etməyərək Nəriman Nərimanov üzərində bir məhkəmə prosesi qurulur. Ordubadi proseslə əlaqədar xatirələrində yazır: "Bu prosesdə mənim özüm də iştirak edirdim. Orada məktubda yazılan məsələlərin doğru olub-olmaması təhqiq edilmədi. Burada ancaq məktub yazılması işinin siyasi bir səhv olduğunu meydana atmışdılar. Nəticədə bəziləri Nərimanın partiyadan qovulmasını təklif etdilər. İran kommunistlərindən Ağazadələr yuxarıdakı təkliflərlə razılaşmadılar. Onlar Nərimanın güllələnməsini təklif etdilər. Bu hadisə məni o qədər də təəccübləndirmədi. Çünki Nəriman əleyhinə düzələn qruppanı Levon Mirzoyan idarə edirdi, o hər cürə olursa Nərimanı ifşa etməli və nüfuzunu düşürməli idi. Məni təəccüb gətirən bir şey varsa, o da Dadaş Bünyadzadənin Nəriman əleyhinə səs verməsi idi" [1,s.7]. Bütün bu hadisələrdən sonra M.S.Ordubadi N.Nərimanovla iki dəfə görüşür. N.Nərimanova daha çox D.Bünyadzadənin ona olan münasibəti təsir edirdi.

Nəzərə çatdırmaq lazımdır ki, rusiyalı qafqazşünas alim Rudolf Nikolayeviç İvanovun Nəriman Nərimanov haqqında yazdığı "Ölüm mübarizəsi" [5] kitabında erməni bolşeviklərinin bu görkəmli şəxsiyyəti nəyin bahasına olursa-olsun hakimiyyətdən uzaqlaşdırmaq cəhdləri, xəyanətləri və Nərimanovun "Mikoyan-Sərkis-Mirzoyan" üçlüyünə

qarşı apardığı mübarizə təsvir edilir. Rudolf İvanov Nərimanov şəxsiyyətini hərtərəfli tədqiq etmək üçün onun siyasi xadimlərə və yaxınlarına ünvanladığı məktublarından, Rusiya və Azərbaycan arxivlərində saxlanılan gizli tarixi sənədlərdən, təxminən 475 materialdan yararlanmışdır. Bütün bu tarixi materiallar, eyni zamanda, dövrün mənzərəsinin canlandırılmasında, tarixi şəxsiyyətlərin obrazlarının səciyyələndirilməsində əvəzsiz qaynaq olmuşdur.

Keçən əsrin 20-ci illərinin tarixi mənzərəsini izləmək, Azərbaycanda baş verən siyasi prosesləri öyrənmək baxımından "Nəriman Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər" kitabı da zəngin material verir. Sənədlərə əsasən məlum olur ki, Nəriman Nərimanov Dağlıq Qarabağ ərazisinə muxtariyyət verilməsinin əleyhinə idi. Onun yazdıqlarından məlum olur ki, Dağlıq Qarabağ Levon Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir [6, s.100].

Bəzi müəlliflər Nəriman Nərimanovu millətçilikdə günahlandırırdılar. Əslində, Nərimanov həqiqətən də xalqını, millətini sevən bir vətənpərvər olmuşdur. Ordubadi də xatirələrində Nərimanovun vətənpərvərliyini və buna görə də erməni daşnakları tərəfindən təqibə məruz qaldığını, onlarla mübarizə apardığını işıqlandırmağa müvəffəq olmuşdur. Eyni zamanda vətənpərvər ziyalı, böyük dövlət xadimi Nəriman Nərimanov yaşadığı dövrə uyğun olaraq tarixi xidmətlər göstərmişdir.

Mərkəzi Komitəyə göndərdiyi məruzə məktublarının birində Nərimanov erməni daşnaklarının "fəaliyyətini" bir daha vurğulayaraq ona qarşı olan hücumları nəzərə çatdırmışdır: "Müsəlman fəhlələri arasında baş vermiş çevrilişdən sonra keçən 2,5 il üçün Mikoyanın, Sərkisin və Mirzoyanın başçılıq etdiyi BEKA-nın işini, nəhayət, yoxlamaq lazımdır. İndiyə qədər solluq oyunu oynamış və oynayanların cinayətkar fəaliyyəti aydın şəkil alardı. O zaman mənim söylədiyim qeyri-normal qarşılıqlı münasibətlərin səbəbi də aydın olardı. Yeri gəlmişkən, mən burada qeyd etməliyəm ki, partiyanın dağıdılması yol. Sərkis tərəfindən başlanmış, onun varisi Mirzoyan tərəfindən isə son həddə çatdırılmışdı. Hər yerdə casusu olan və ancaq xəbərçiliklə yaşayan Mirzoyan çox məhdud adam olub, BEKA katibi hüquqlarından bu qrupun fəaliyyətini tənqid etməyə cürət edənlərə qarşı intiqam silahı kimi istifadə edir. Fəaliyyətimdə ardıcıl olduğum üçün mən belə hadisələrə göz yuma bilmirdim, lakin mənim hər bir çıxışım "beynəlmiləlçi" Sərkis və Mirzoyan tərəfindən milli təmayüllü kommunistin çıxışı kimi şərh edilirdi" [7, s. 35].

Nəriman Nərimanov haqqında xatirələrində Məmməd Səid Ordubadi tarixi hadisələri işıqlandırmaqla yanaşı bu görkəmli ictimai-siyasi xadim, böyük ədib haqqında düşüncələrini, yaddaşında olanları canlandırmışdır. Bu nümunələrdə tarixi gerçəkliklərin əksi fonunda Azərbaycan ədəbiyyatının və ictimai fikir tarixinin görkəmli nümayəndələri Məmməd Səid Ordubadinin və Nəriman Nərimanovun həyat və fəaliyyətlərinin müəyyən dövrü təsvir edilir, bəzi qaranlıq məqamlara aydınlıq gətirilir.

**Ədəbiyyat:**


1. Ordubadi M.S. Nərimançılıq. AMEA ƏYİ, f.14, sax. vah. 413.
2. Əhmədov T. Seçilmiş əsərləri (5 cilddə), I cild. Bakı: "Nurlar", 2015.
3. Dubinski-Muxadze İ. Nərimanov. Bakı: Yazıçı, 1979.
4. M.S.Ordubadi, Ə.Əminzadə, Ə.Müznib. Xatirələr. Bakı: Nurlan, 2008.
5. Иванов Р.Н. Смертельная схватка. Москва: 2015.
6. Nəriman Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı: 2002.
7. Nəriman Nərimanov. Bakı: "Nurlar", 2010.

***Самедова Наиля***

**НАРИМАН НАРИМАНОВ В ВОСПОМИНАНИЯХ МАМЕД САИДА ОРДУБАДИ**

(Нариман Нариманов - 150)

**Резюме**

Личные архивы двух выдающихся деятелей XX века - Мамед Саида Ордубади и Наримана Нариманова хранятся в Институте Рукописей имени Мухаммада Физули НАНА. Эти архивы содержат материалы их литературной и общественной деятельности, а также их личной жизни. В частности, некоторые моменты жизни и деятельности Наримана Нариманова освещены в мемуарах Ордубади «Моя жизнь и среда» и «Второй раз в Баку». Мемуары Ордубади «Наримановедение» в целом посвящены этому известному общественному деятелю.

В представленной статье исследуются воспоминания Мамед Саида Ордубади о Нarimane Нариманове и исторические события анализируется на основе реальных событий.

**Ключевые слова:** *Нариманов, архив, Ордубади, воспоминания, статья.*

***Samadova Naila***

**NARIMAN NARIMANOV IN THE MEMORIES OF MAMMAD SAID ORDUBADI**

(Nariman Narimanov - 150)

**Summary**

The personal archives of two prominent figures of the XX century - Mammad Said Ordubadi and Nariman Narimanov are preserved in the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. These archives contain examples of their literary and social activities, as well as their personal lives. Particularly, several moments of Nariman Narimanov's life and activity were illustrated in Ordubadi's "My Life and My Environment" and "The Second Time in Baku"memoirs. Ordubadi's memoir "Narimanchilig" is entirely about this eminent public figure.

In the presented article, Mammad Said Ordubadi's memoirs about Nariman Narimanov are researched, historical events are brought to light on the basis of real events.

**Key words:** *Narimanov, archive, Ordubadi, memoir, article*

*Redaksiyaya daxil olma tarixi: 10.11.2020*
*Çapa qəbul olunma tarixi: 17.11.2020*

*Filologiya elmləri doktoru Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur.*